# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## ƏMR

№ F-142

Bakı şəhəri "6" dekabr 2016 il

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Qanunun tətbiq edilməsi haqqında

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 14.10.16. tarixli 334-VQD nömrəli Qanununun 11-1-ci və 11-2-ci maddələrinin tələblərindən və "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 14 oktyabr 2016-cı il tarixli 334-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 07.11.16. tarixli 2423 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.10-cu yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyinin Aparatı, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumlar üzrə əməkdaşlar tərəfindən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün səlahiyyətli struktur bölmə Daxili nəzarət şöbəsi, müvafiq vəzifəli şəxs isə Aparat rəhbərinin müavini-Daxili nəzarət şöbəsinin müdiri Ayaz Əliyev müəyyən edilsin.

2. Nazirliyin təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə edilməsi Nazirliyə həvalə olunmuş hüquqi şəxslərin və Tarif (qiymət) Şurasının Katibliyinin rəhbərlərinə tapşırılsın ki, əməkdaşlar tərəfindən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müvafiq vəzifəli şəxsin və səlahiyyətli struktur bölmənin müəyyən olunmasını və bu barədə Daxili nəzarət şöbəsinə məlumat verilməsini təmin etsinlər.

3. Müəyyən olunsun ki:

3.1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs özü barədə məlumatın açıqlanmasını istəmədiyi halda, səlahiyyətli strukturlar və müvafiq vəzifəli şəxslər onun konfidensiallığını təmin etməlidirlər;

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR

3.2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun 11-2-ci maddəsinə uyğun təmin edilir.

4. Aparat rəhbərinin müavini - Daxili nəzarət şöbəsinin müdiri Ayaz Əliyevə tapşırılsın ki, bu əmrin tələblərindən irəli gələn digər məsələlərin tənzimlənməsi ilə bağlı zəruri inzibati-təşkilati və huquqi-əməli əlaqələndirmə işlərinin aparılmasını təşkil etsin.

5. İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri - mətbuat katibi Abbas Əliyevə tapşırılsın ki, İqtisadiyyat Nazirliyi üzrə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün səlahiyyətli struktur bölmənin və müvafiq vəzifəli şəxsin müəyyən edildiyi barədə məlumatın Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

6. Ümumi şöbənin müdiri Rövşən Ataşova tapşırılsın ki, bu əmrin surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Aparat rəhbərinin müavini - Daxili nəzarət şöbəsinin müdiri Ayaz Əliyevin 22.11.16. tarixli İN-D/Y-18801/2016 nömrəli xidməti məruzəsi.

Nazir — Şahin Mustafayev

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ÜMUMİ ŞÖBƏ

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR